UOT 75

***Sevinc İslamova***
***Azərbaycan Dövlət Mədəniyyət və***
***İncəsənət Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail***: sevka-75@mail.ru

# XALQ RƏSSAMI NAZİM BƏYKİŞIYEVİN AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ YERİ

**Xülasə:** Məqalədə Azərbaycan rəngkarlığında lirik mənzərə ustası kimi tanınmış simalarından biri olan Nazim Bəykişiyevin yaradıcılığı tədqiq olunur. Müəllif qeyd edir ki, N.Bəykişiyev yaratdiği mənzərələrə görə 2006-cı ildə Beynəlxalq "Humay" mükafatına layiq görülməsi də onun rəngkarlıq sahəsindəki uğurlarına verilən qiymət sayıla bilər. Təsviri sənət sahəsində səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikasının əməkdar rəssamı" (2002) və "Azərbaycan Respublikasının xalq rəssamı" (2006) fəxri adlarını alması da onun fəaliyyətinin rəsmi səviyyədə təqdirinin göstəricisidir.

**Açar sözlər:** Nazim Bəykişiyev, rəssam, rəngkarlıq, lirik mənzərə, təsviri sənət.

Çoxəsrlik keçmişə və zəngin bədii ənənələrə malik olan Azərbaycan təsviri sənəti tarixinin səhifələrində iz salmaq, ərsəyə gətirdiyi bədii irsi milli sərvətə çevirmək zamanın axarında hər bir yaradıcı üçün çox çətin məsələyə çevrilib, desək, yanılmarıq. Əgər orta əsrlərdən iyirminci yüzilliyə qədərki dövrdə - sənət sahələrinin və onunla məşğul olanların sayının müasir dövrlə müqayisədə az olduğunu nəzərə alsaq, sənət tarixində qalmağın indiki dövrdə daha çətin olduğunu etiraf etməliyik. Bu mənada Xalq rəssamı Nazim Bəykişiyevin yaradıcılığı rəqabətin kəskin şəkil aldığı XX əsrdə sənətkar "mən"ini təsdiqləməsi, fəaliyyət göstərdiyi rəngkarlıq və teatr-dekorasiya sənəti sahəsinin aparıcı simalarından birinə çevrilməsinin ilk növbədə onun davamlı axtarışlarının özünəməxsus

nəticələrlə sonuclanmasının nəticəsində baş tutduğunu deye bilərik.

Əvvəlcə Bakıda məşhur "Əzimzadə məktəbi"ni (1965-1969), sonra isə Moskvadakı Rusiya Teatr Sənəti Akademiyasını (1969-1975) bitirən gənc rəssam, elə təhsil sonrasından başlayaraq tamaşalara verdiyi bədii tərtibat və müxtəlif sərgilərdə iştirakı ilə həmkarlarının və çoxsaylı sənətsevərlərin diqqətini cəlb etməyə çalışıb. İlk fəaliyyət məkanları sayılan Orconikidze və Sumqayıt teatrlarında keçən doqquz il onun bədii potensialını sona qədər üzə çıxarmasa da, 1984-cü ildə Azərbaycan teatrının ən nüfuzlu məbədi sayılan Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında verdiyi elə ilk quruluşla bədii məkanda tanındı. Başqa sözlə desək, burada məşhur rejissor, SSRİ Xalq artisti Mehdi Məmmədovun görkəmli dramaturq Hüseyn Cavidin səhnəyə qoyduğu "İblis" tamaşasına gənc həmkarı Elçin Məmmədovla bədii quruluş verən Nazım Bəykişiyev, elə həmin il həm də yüksək mükafata - Azərbaycan SSR Dövlət mükafatına layiq görüldü. Bu, rejissor, aktyor, bəstəkar və rəssam əməyinin dəyərləndirilməsində diqqətçəkən məqam dramaturqun təxəyyülünün nəticəsi olan və 1920-ci ildən başlayaraq Azərbaycan teatrlarının repertuarlarında ara-sıra yer alan faciənin baş tutan uğuru respublikanın mədəni məkanı üçün çox gözlənilməz oldu, desək, həqiqəti söyləmiş olarıq. Ədəbi materialın mürəkkəbliyi üzündən hər rejissorun müraciət etmədiyi bu faciənin yeni səhnə quruluşunu ictimailəşdirən Mehdi Məmmədov əsərin başlıca qayəsinə - Xeyirlə Şərin mübarizəsinə verdiyi səhnə traktovkasında, yaşanan təzadlı hadisələrə romantik-lirik ruh qatdığından "İblis", sözün əsl mənasında düşündürücü-duyğulandırıcı mənəvi qaynağa çevrilmişdi. Bu mənada zamanında tamaşa ətrafında uzun müddət davam edən mükalimələrin sonda yüksək dəyərləndirmə ilə sonuclanması da, əslində bu bədii şərhin yaddaqalanlığında yaxından iştirak edən iki gənc rəssamın rejissor yozumunu və aktyor oyununu uğurla tamamlamasının nəticəsi idi. Bu prosesdə ən yaddaqalan isə, Nazim Bəykişiyevin ilk böyük sənət uğurunda sərgilədiyi özünəməxsus bədii şərhin sonrakı fəaliyyəti dövründə onun "tanınma nişanı"na çevrilməsi oldu. Bu bədii ruhun onun Azərbaycan teatr-dekorasiya sənəti tarixində özünəməxsus yerini şərtləndirdi, desək, yanılmarıq. Müasir dövrdə onun bu sahənin aparıcı simalarından birinə çevrildiyi də birmənalıdır. Bu mənada onun bu günə kimi davam edən teatr fəaliyyətinin səciyyəvi estetikasında "İblis"də sərgilədiyi bədii məziyyətlərin improvizələrinin müşahidə olunduğu da danılmazdır. 2004-cü ildə onun Teatr Xadimləri İttifaqının təsis etdiyi "Qızıl Dərviş" mükafatına layiq görülməsi də onun "İblis"in uğurundan keçən 20 ildə milli teatr səhnəqrafiyasına verdiyi bədii töhfələrin ədalətli dəyərləndirilməsi olmuşdur. Qənaətimizcə, rəssamın teatrda əldə etdiyi uğurların mayasında onun ruhunda gəzdirdiyi bənzərsiz rəngkarlıq istedadının təsiri böyük olmuşdur. Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, professor Azər Paşa Nemətin bu məsələni dəyərləndirməsi diqqətçəkəndir: "Məndən ötrü Nazim Bəykişiyev hər iki sənətin təbiri caiz səlahiyyətli nümayəndəsidir. Fikrimi açıqlayaraq onu deməliyəm ki, Nazim Bəykişiyev məncə, səhnəyə boyakarlığın azadlığını, boyakarlığa isə səhnənin nizamını gətirib" [1,s.8].

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin onun yaradıcılığının "qoşa qanad"larından birini təşkil edən teatr

fəaliyyətinin özünəməxsusluğunu yüksək dəyələndirməsi də səbəbsiz deyil: "Qənaətimizcə, 2001-ci ildən Akademik Milli Dram Teatrında baş rəssam vəzifəsində çalışan Nazim Bəykişiyevə bu müraciətlər ilk növbədə onun dramaturji materiala və rejissor düşüncələrinə məsuliyyətli və yaradıcı yanaşmağının nəticəsidir ki, müxtəlif teatrlar ən taleyüklü məqamlarda məhz ona müraciıt edirlər.Müxtəlif teatrlarda ayrı-ayrı rejissorlarla çalışan və müxtəlif janrlı əsərlərə bədii tərtibat verən Nazim Bəykişiyev bu prossesdə öz işini başlıca olaraq, dramaturji materialın tamaşaçını cəlb edə biləcək və onun hiss-duyğularını səhnədə baş verənlərin inandırıcı olmasına kökləyə biləcək psixoloji durumun yaradılmasında iştirakda görür. Özünün dediyi kimi, bu prosesdə başlıca missiyası "rejissorla tamaşaçı arasında körpü rolunu oynamaqdan" ibarətdir[2,s.16].

Bir qərinəlik teatr fəaliyyəti dövründə ayrı-ayrı teatrlarda Hüseyn Cavid, Mirzə Fətəli Axundzadə, Uilyam Şekspir, Prosper Merime, Şıxəli Qurbanov, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə, Bəxtiyar Vahabzadə, Aleksandr Vampilov, Aleksandr Şteyn, Sabit Rəhman, Otari İoseliani və b. kimi məşhurdramaturqların səhnəyə qoyulan əsərlərində uzaq-yaxın dövrün təzadlı hadisələrinin ideya daşıyıcılığının yeni - dövrlə səsləşən və aktuallıq kəsb edən düşündürücü yozumla təqdimatı da dediklərimizi təsdiqləyir və onun bir teatr rəssamı kimi milli səhnəqrafiyada önəmli yer tutduğunu müəyyənləşdirir...

Onun rəngkarlıq sahəsində fəaliyyətində bir çox mütəxəssislərin də vurğuladığı teatrallığın işartıları vardır. Bunu şərtləndirən estetikada rəssamın gerçəkliyə baxışının, rakurs seçiminin, ilin və günün ab-havasının inandırıcılığını şərtləndirən koloritin özünəməxsusluğunun mövcudluğu danılmazdır. Ammarəssam rəngkarlıq əsərləri üçün daha səciyyəvi olan ovqatın-duyğulandırıcılığın əldə olunmasında teatrdakı yığcamlığı və şəriliyi o qədər də bol olmayan rənglərin çoxsaylı çalarları ilə əvəzləmişdir. Zamanında Azərbaycan, o cümlədən də Abşeron təbiətinə özünəməxsus bədii münasibət bəsləməsi ilə ad çıxarmış Səttar
Bəhlulzadə ənənələrini uğurla davam etdirən Nazim Bəykişiyevin milli rəssamlığımız üçün yeni olan "fəlsəfi mənzərə"nin estetik xəritəsini özünəməxsus kompozisiya quruluşları və rəng çalarları ilə zənginlədirməsi danılmazdır. Rəssamın müxtəlif illərdə yaratdığı "Çiçəklənən Azərbaycan" (1986 ),"Keşlədə axşam" (1987), "Dənizdə"(1987), "Abşeronda" (2005), "Bakıda küçə" (2010), "Kəndimizin səhəri" (2012), "Mənzərə" (2001 ), "Payız" (2004 ), "Səssizlik" (2001), "Evlər" (2005), "İçərişəhər" (2006), "Novxanı" (2006) və s. mənzərələrində müşahidə olunan estetikada cəlbedicilik və duyğulandırıcılıq arasında mövcud olan "mənəvi körpü"yə tamaşaçı inamının böyüklüyündəndir ki, sərgi ekspozisyalarında onun əsəri soraqlanmaqdadır. Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə dokoru Ziyadxan Əliyevin təbirincə desək, "Onun bəyaz rəngin müxtəlif çalarlarından "boylanan" mənzərələrində ifadə olunan bədii görüntü kifayət qədər lirik-fəlsəfi qata bələndiyindən heyrətamizdirlər. Rəssamın sakit-incə koloritə tapınan mənzərələrində icra sənətkarlığı isə doğrudan da qibtə olunandır[2,s.16].

Qənaətimizcə, Nazim Bəykişiyevin həm Abşeron ünvanlı, həm respublikamızın digər guşələrinə həsr olunmuş mənzərələrində Azərbaycan təbiətinə baxışı teatr rəssamlığından gəlmə rakursların mövcudluğu, çox vaxt

gözümüzdə adiləşən motivlərin sözün əsl mənasında fərqli və daha yeni təqdimatını şərtləndirib və əsərlər rəssamın lirik-fəlsəfi yozumunda müəyyən məkanların bədii obrazı səviyyəsinə yüksəldilib, tamaşaçını ovsunlaya biləcək mənəvi qaynağa çevrilib. Bu da onun lirik mənzərə ustası kimi Azərbaycan rəngkarlığının tanınmış simalarından biri olmasını şərtləndirib. Yaratdığı mənzərələrə görə 2006-cı ildə Beynəlxalq "Humay" mükafatına layiq görülməsi dəonun rəngkarlıq sahəsindəki uğurlarına verilən qiymət sayıla bilər.

Təsviri sənətin bu iki sahəsində səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikasının əməkdar rəssamı" (2002) və "Azərbaycan Respublikasının xalq rəssamı" (2006) fəxri adlarını alması da onun fəaliyyətinin rəsmi səviyyədə təqdirinin göstəricisidir.

**Ədəbiyyat:**


1. Nemətov A.P. . Nazim Bəykişiyev (Rəngkarlıq və teatr-dekor). Bakı, 2008.
2. Əliyev Z. Zərif boyaların lirik-fəlsəfi tutumu // Kaspi qəzeti 2015, 03 dekabr S. 16
3. Ələsgərov Çingiz. Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr. Qobustan №2. 2004. S. 36-38.
4. Əlizadə M. O teatrda, teatrı sevir. Qobustan sənət toplusu. № 1, 2008.



**Севиндж Исламова**


**Роль в изобразительном искусстве Азербайджана Народного художника Назима Беккишиева**

**Резюме**


В данной статье автор исследует творчество Народного художника Азербайджана Назима Беккишиева, известного как автора лирических пейзажов. Отмечается, что за созданные им пейзажи он в 2006-ом году был удостоен международной наградой «Хумай». Назим Беккишиев за плодотворную творческую деятельность был удостоен званий Заслуженного Художника (2002) и Народного Художника Азербайджанской Республики (2006).



**Ключевые слова**: Назим Беккишиев, художник, живопись, лирический пейзаж, изобразительное искусство.



**Sevinj Islamova**


**The role of Azerbaijani People's artist Nazim Bekisheva in fine arts**

**Summary**


In this article the author explores the creativity of People's artist of Azerbaijan Nazim Beykisheva known as the author of lyrical landscape. It is noted that in 2006 he was awarded the international award "Humay". Nazim Beykishev for his fruitful creative activity was awarded the title of Honored Artist (2002) and People's Artist of the Republic of Azerbaijan (2006).

**Keywords**: Nazim Beykishev, artist, painting, lyrical landscape, fine arts.
**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.03.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.04. 2018Məqalənin çapa qəbul olunma tarixi: 29.04.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:** sənətşünaslıq üzrə fəlsəfədoktoru, dosent Afət Aslanova
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**